Azərbaycan Respublikası Xalq Parlamentinin (AzXP)

Avropa Parlamentinin 13 mart 2025-ci il tarixli Qətnaməsi barədə

BƏYANATI

Azərbaycan Respublikasının Xalq Parlamenti (AzXP) Avropa Parlamentinin 13 mart 2025-ci il tarixli "Azərbaycan tərəfindən, o cümlədən Dağlıq Qarabağdan olan yüksək vəzifəli siyasi nümayəndələr də daxil olmaqla, erməni girovlarının qanunsuz saxlanılması və saxta məhkəmələrə cəlb edilməsi haqqında" (2025/2596(RSP)) nömrəli qətnaməsi ilə bağlı aşağıdakıları bəyan edir:

1. Azərbaycan Respublikasının Xalq Parlamenti:

- Avropa Parlamentinin bütövlükdə Azərbaycan Respublikasında insan hüquq və azadlıqlarının vəziyyəti barədə narahatlığını, siyasi məhbuslarla bağlı göstərdiyi mövqeyini yüksək qiymətləndirir.

- Siyasi məhbusların azadlığa buraxılması, insan hüquq və azadlıqlarının təmin edilməsi, Ermənistanla sülh müqaviləsinin tezliklə bağlanması ilə bağlı (Ermənistanın Azərbaycana 30 il ərzində vurduğu ziyanı tam ödəmək şərtilə - reparasiya) Avropa Parlamentinin Azərbaycan Hökumətinə qarşı tələblərini və mövqeyini dəstəkləyir.

- Azərbaycan hakimiyyətinin Beynəlxalq Qırmızı Xaç Komitəsi (BQXK) və Birləşmiş Millətlər Təşkilatı (BMT) agentliklərinin ofislərini bağlamasından dolayı Avropa Parlamentində yaranan narahatlığı bölüşür.

- Azərbaycan nümayəndə heyətinin mandatının təsdiq edilməməsi barədə Avropa Şurası Parlament Assambleyasının (AŞPA) 24.01.2024-cü il tarixli qərarını vaxtında atılmış addım hesab edir və bunun məsuliyyətinin Azərbaycan Hökumətinin üzərinə düşdüyünü bildirir.

- Azərbaycan xalqının Avropa Şurası ilə əməkdaşlıqda maraqlı olduğunu, bu əməkdaşlığı daha da dərinləşdirməkdə qərarlı olduğunu nəzərə alaraq, xalqımızı AŞPA-da təmsil etmək niyyətində olduğunu bəyan edir.

2. Azərbaycan Respublikasının Xalq Parlamenti, eyni zamanda, Avropa Parlamentinin 13 mart 2025-ci iI tarixli Qətnaməsində;

- ermənilərə qarşı etnik təmizləmə,

- guya Azərbaycanda hansısa erməni hərbi əsirlərin (əslində onlar müharibə və xüsusilə ağır cinayətlər törətməkdə ittiham edilən təqsirləndirilən şəxslərdir) saxlanması, onların qeyri-insani və alçaldıcı rəftara məruz qalması,

onlara psixoaktiv üsullarla təsir edilməsi və onlara qarşı saxta məhkəmə proseslərinin keçirilməsi barədə yazılan əsassız iddialara görə dərin təəssüf hissi keçirdiyini bildirir.

- Xüsusilə vurğulamağı zəruri hesab edir ki, Azərbaycan Hökuməti, ermənilər də daxil olmaqla, xarici vətəndaşlarla müqayisədə məhz öz vətəndaşlarına qarşı qeyri-insani davranış nümayiş etdirir.

3. Azərbaycan Respublikasının Xalq Parlamenti:

- Avropa Parlamentinin həmin Qətnaməsində Avropa İttifaqı və üzv dövlətlərin Azərbaycandakı səfirliklərini məhkəmə proseslərini izləməyə və bütün erməni məhbuslarını mütəmadi olaraq ziyarət etməyə çağırmasını dəstəkləyir,
- Avropa İttifaqının Ali Nümayəndəsini və İnsan Hüquqları üzrə Xüsusi Nümayəndəsini də bu şəxsləri ziyarət etməyə çağırmasına qoşulur,
- Azərbaycan vətəndaşlarına qarşı dövlət rəsmiləri, xüsusən də insan hüquqlarını pozan prokurorlar və hakimlər – Camal Ramazanov, Anar Rzayev və Zeynal Ağayev – barəsində Qlobal İnsan Hüquqları Sanksiya Rejimi çərçivəsində sanksiyaların tətbiq olunmasını tələb etməsini dəstəkləyir və bu siyahının daha da genişləndirilməsini arzu edir,

4. Azərbaycan Respublikasının Xalq Parlamenti, nəzərə alaraq ki:

- Azərbaycan nümayəndə heyətinin mandatının təsdiq edilməməsi barədə AŞPA-nın qərarından sonra xalqımız bu mötəbər beynəlxalq təşkilatda təmsil edilmir və onun problemləri qaldırılmır,
- erməni nümayəndə heyəti tərəflər arasında baş verənlərlə bağlı birtərəfli qaydada əsassız məlumatlar yaymaqda davam edir,
- Azərbaycan Hökuməti xalqımıza qarşı özünün repressiya və dövlət terroru siyasətini davam etdirir,
- Ölkəmizdə siyasi məhbusların artması, insan hüquq və azadlıqlarının pozulması, insanların diktatura rejimində kütləvi təqib edilməsi, öz ölkələrini tərk etməyə məcbur edilməsi davam edir,

Azərbaycan Respublikasının Xalq Parlamenti, Azərbaycan xalqının təmsil edilməsi üçün, Avropa Şurası Parlament Assambleyasında və Avropa Parlamentində təmsilçi statusu ilə iştirakının təmin edilməsini AŞPA və AP rəhbərliyindən xahiş edir. Azərbaycan Respublikasının Xalq Parlamenti seçki yolu ilə formalaşmış və hazırda ölkədə yeganə legitim siyasi qurumdur.

26 aprel 2025-ci il

Bakı-Brüssel

AzXP-nin sədri: Abid Qafarov